# ŞAGİRDLƏRİN MƏNƏVİ ZƏNGİNLƏŞMƏSİNDƏ XOR İFAÇILIĞININ ROLU

**Maralxanım Əliyeva**
ADPU-nin «Musiqi və onun tədrisi metodikası" kafedrasının müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru

Xor sənəti musiqi mədəniyyətinin ən qədim və zəngin sahələrindən biridir. Xor ifası bədii fəaliyyətin ən geniş və demokratik forması olaraq insanların mənəvi aləmlərini, düşüncə və hisslərini, arzu və istəklərini, dünyagörüşlərini əks etdirir. Ölkəmizin musiqi mədəniyyətinin inkişafında, gənc nəslin bədii-estetik zövgünün formalaşmasında, mədəni insan kimi böyüməsində xor musiqisinin böyük əhəmiyyəti var. Xor ifaçılığı gənclərdə "fəal həyat mövqeyi yaratmaqla bərabər müəyyən biliklər verməli, əmək, istirahət proseslərinə yaradıcı yanaşmağı öyrətməlidir." (1, 60.).

Mənəvi mədəniyyətin tərbiyəsi və onun inkişaf etdirilməsi üçün yeniyetmə dövrü ən əlverişli sayılır. Görkəmli pedaqoq V.A.Suxomlinski deyirdi: "Yeniyetmənin mənəvi simasında coşqun, müəyyən mənada biri-birinə zidd olan hallar baş verir ki, onları da sağlam mənəvi inkişafa istiqamətləndirərək yönəltmək gərəkdir." (2, 36.). Bu yollardan biri də musiqi-estetik tərbiyədir.

Fəal yaradıcılığa canatma – yeniyetmələrə xas xüsusiyyətdir. Müxtəlif musiqi özfəaliyyət kollektivlərində (orkestr, ansambl, xor) fəal iştirak arzusu da buna aiddir. D.Kabalevskinin fikrincə kütləvi musiqi tərbiyəsinin ən başlıca və əsas vəzifəsi "təkcə musiqi ifaçılığını öyrətməkdən ibarət deyil, həm də musiqi vasitəsilə şagirdin bütün mənəvi aləminə təsir göstərməkdir." (3, 28.).

Xor ifaçılığı ümumi mədəniyyət, milli ənənə və tərbiyənin möhkəm əsasları üzərində inkişaf etdirilir. O, insan həyatında hədsiz həyəcanlı emosiyalar, əhval-ruhiyyədə zərif rəngarənglik, sağlam düha yarada bilmək qabiliyyətinə malikdir. Canlı ifanın səviyyəsi nə qədər yüksək olarsa, bir o qədər ifaçıların özlərinin mənəvi tələbatlarının formalaşmasına və inkişafına da onun təsiri güclü olar. Xor ifaçılığı yeniyetmənin fəallaşmasında, yaradıcı qabiliyyətlənin üzə çıxmasında, onun dünyagörüşünün, intellektinin, emosiyalar vasitəsilə estetik zövqünün inkişaf etdirilməsində mühüm rol oynayır. Kollektiv yaradıcı ifaçılıq musiqiyə tələbatı və marağı artırmaqla bərabər, yeniyetməni mənəvi cəhətdən də zənginləşdirir.

Şagirdin şüurlu şəkildə həyata keçirdiyi ifaçılıq, ona evdə musiqi ilə məşğuliyyətdən qat-qat artıq zövq verir. Kollektivdə ifa zamanı şagirdlər müəllimlə birgə sanki "yaradır", əsərlərin bədii dəyərlərini və mənasını açıqlayan "açarları" tapmaqla "kəşflər" edir və bu zaman musiqi əsəri özünün yeni tərəfləri ilə parlamağa başlayır, onun mənası və estetik dəyəri dərinləşir.

Xor kollektivi iştirakçıları tərəfindən musiqi əsərlərinin ifası zamanı müəllifin ideya və niyyətlərinin dərki üçün bədii obrazın bütün incəlikləri bariz şəkildə göstərilməli, onun hər bir ifadəlilik xüsusiyyətlərinin izahı tapılmalı və ifa tərzi təhlil edilməlidir. Yalnız bu zaman şagirdlər əsəri mexaniki deyil, yaradıcı şəkildə, müəllifin ideyasını anlayaraq təqdim etməyə qadir olacaqlar. Bununla belə, təkcə müəllifin niyyətlərini bilmək, anlamaq kifayət deyil. Xor ifaçıları həm də yüksək erudisiyaya, geniş dünyagörüşünə və musiqi biliklərinə sahib olmalıdırlar. Bu mənada, xor ifaçılığı özündə geniş tədrisi funksiyaları daşıyır.

Xor ifaçılığı şagirdlərin ideoloji və psixoloji fəaliyyətlərini istiqamətləndirməklə və fəallaşdırmaqla bərabər, yaddaşı, hiss və duyğuları, zövqü, artistizmi, ifadəliliyi və parlaq emosionallığı tərbiyə edir. Bu, təkcə əsərin partiturasının əzbərlənməsi və dirijorun göstərişlərinin kor-koranə yerinə yetirilməsi deyil, ifa olunan musiqi əsərinin bədii məğzini dərindən hiss edib anlama, onu müəllif və dirijorla birgə daxildən qəbul etmə deməkdir. Bu cür vəhdətli mənimsəməyə bədii obrazın tam şəkildə təhlilindən sonra, yaradıcı iş prosesində nail olunur.





Uşaqlara xas səmimilik, saflıq, təəccüblənmə bacarığı, sənətdə daim nəyisə özləri və başqaları üçün axtarıb tapmaq həvəsi – ifadəliliyin, parlaq ifanın vacib amillərindəndir. Eləcə də dirijor-xormeyster də təəccüblənməyi bacarmalıdır. Psixikanın bu xüsusiyyəti təxəyyülə təkan verir. Təxəyyül də öz növbəsində təfəkkürü, görüb-duyma mədəniyyətini, fikrini söyləmə cəsarətini inkişaf etdirir. Təxəyyül təkcə sənət əsərinin mənasını duymaq bacarığını yarada bilməklə kifayətlənmir, həm də bunun ifa vasitəsilə çatdırılmasına zəmin yaradır. Birgə yaradıcılıq və təxəyyül bir-biri ilə sıx bağlıdır. Bədii əsəri təsəvvür edə bilmə qabiliyyəti, əsərin yenidən düşünülməsinə gətirib çıxarır. Musiqi haqqında yaranan yeni yaradıcı fikir isə öz növbəsində təxəyyülü inkişaf etdirir. Təxəyyülün inkişaf etdirdiyi hisslər musiqi yaradıcılığına və onun fərdi, orijinal şəkildə ifasına və ya kollektivdə nümayişinə daxili tələbat yaradır.

Uşaqlarda təxəyyülü, empatiyanı, yaradıcı təfəkkürü tərbiyə edən xor ifaçılığı üç amildən asılı olaraq inkişafdadır: a) repertuar – onun bədiiliyi, mənası və məzmununun istiqaməti; b) dirijor-xormeyster – yeniyetmənin mənəvi simasını formalaşdıran əsas müəllim-tərbiyəçi; c) kollektiv – ifaçılıq prosesində şagirdləri formalaşdıran mühit kimi.

İfaçılıq tam şəkildə repertuardan irəli gəlir ki, o da musiqi marağının, zövqünün, ona qarşı tələbatın bazisidir (özülüdür). Yeniyetmə xorunun repertuarı xarakter, növ, janr etibarilə müxtəlif olmalıdır – ən sadə xalq mahnısından tutmuş, mürəkkəb çoxsəsli xor əsərinə qədər...

Xorun repertuarına yüksək ustalıq tələb edən musiqi əsərlərinin salınması lazımdır ki, bu da kollektivin musiqi səviyyəsinin yüksəlişinə xidmət göstərə bilər. Lakin nəzəri biliklər və xorda əldə edilən praktiki bacarıq, kollektiv işin qüvvəsi, dirijorun ustalığı, əsərin yüksək bədiiliyi, yaranan fəal maraq, çətin xor partiturasının öhdəsindən gəlməyə yardımçıdır. Professional tələblər xor iştirakçılarının iş prosesinə cavabdehliyini artırır. Bununla belə, vacibdir ki, musiqi əsərinin ədəbi məzmunu düşüncə etibarilə həmişə dolğun və orijinal olsun, onunla tanışlıq həyatda və sənətdə yenilik gətirsin. Bəzən xor rəhbərləri repertuara müasir bəstəkarların musiqi-harmonik dili həddindən çox mürəkkəb olan əsərlərini daxil edirlər. Zənnimizcə, xormeyster burada bir peşəkar kimi, hər bir yeniliyə qarşı müəyyən çərçivədən kənara çıxmamaq məqsədini güdməlidir. Repertuar seçimi zamanı təkcə bədii dəyərlər deyil, həm də uşaq kollektivinin vokal-texniki imkanları da nəzərə alınmalıdır. İfa baxımından tam əldə edilə bilməyən və ya dolğun şəkildə hazırlanmayan əsərlərə meyllilik səslənmənin keyfiyyətinə ziyan vurur, hələ bərkiməmiş uşaq səslərini batırır. Müasir dövrdə akselerasiya proseslərini nəzərə alaraq, yadda saxlamaq lazımdır ki, hətta artıq böyük kimi görünən yeniyetmələr əslində fiziki cəhətdən hələ uşaq olaraq qalır.

Kollektivə rəhbərlik edən xor müəlliminin rolu bir şəxsiyyət kimi danılmazdır. O, zamanla ayaqlaşmalı, repertuar seçimində şagirdlərin musiqiyə həvəslərini daha da artırmalıdır, musiqi mədəniyyətinə tam malik olmalıdır. Uşaqlarda Azərbaycan və digər müxtəlif xalq mahnılarına marağın artırılması və onların xor ifaçılığına cəlb olunması bədii zövqün yaranmasına və inkişafına yaxından kömək göstərir. "Şagirdləri başqa xalqların musiqisi ilə tanış etmək üçün ən əsas şərt şagirdin öz milli xalq musiqisinin xüsusiyyətlərini mükəmməl bilməsidir." (4, 82). Folklorun təbiəti və sirlərinə yiyələnmə onların ifa vasitəsilə məharətlə təqdimat bacarığına, musiqi mədəniyyətinin xüsusiyyətlərinin dərkinə, müxtəlif xalqların mədəniyyət və ənənələrinin, eləcə də tarixi-etnoqrafik baxımdan biliklərinin artırılmasına gətirib çıxarır.

Xor müəlliminin şagirdlərin valideynləri və sinif rəhbərləri ilə sıx əlaqə saxlaması özünü çoxtərəfli büruzə verir. Ayrı-ayrı siniflər, müxtəlif bayramlar üçün repertuarın seçilməsinə kömək göstərir. Uşaqlar bu tədbirlərə öz mahnılarını gətirməklə bərabər, həm də öz ifa təcrübələrini, vokal-texniki vərdişlərini nümayiş imkanı qazanırlar. Həmçinin belə əlaqələr hər bir xor iştirakçısının psixoloji və fizioloji inkişafının daim nəzarətdə saxlanılmasına da şərait yaradır.

Məktəbli xor kollektivlərində uşaq özünüidarəetmə sistemi geniş yer almalıdır. Belə olduqda, şagirdlərin "özün bilirsən, başqalarını da öyrət" prinsipi ilə işlədikləri halda – bütün bunların hamısı müvəffəqiyyətli həmrəy xor kollektivinin tərbiyə edilməsinə şərait yaradır. Yalnız yekdil, vəhdətdə təşkil olunmuş kollektivdə həm ümumilikdə xor ifaçılığının inkişafı, həm də hər bir şagirdin ayrı-ayrılıqda musiqi-estetik tələbatları zənginləşir ki, bu da öz növbəsində, əsl yaradıcı imkanların qurulması üçün böyük zəmin yarada bilər. ❖


**Ədəbiyyat:**

1. Qədimova J. Musiqinin tədrisi metodikası. Bakı, ADPU-2007
2. B.A.Suxomlinski. Şagirdlərin mənəvi dünyası. Moskva, 1961
3. D.B.Kabalevski. Müasir dünyada musiqi tərbiyəsi. Moskva,1970
4. S.Quliyev. Musiqi inkişafı və musiqi tərbiyəsi. Bakı, 1981
5. Y.B.Əliyev. Musiqi müəllimini stolüstü kitabı. Moskva, 2005



**Резюме**

Маралханум Алиева

РОЛЬ ХОРОВОГО ПЕНИЯ В ДУХОВНОМ ОБОГАЩЕНИИ ШКОЛЬНИКОВ

Статья посвящена раскрытию роли хорового пения в духовном обогащении школьников. Здесь анализируются основные факторы хорового исполнительства, развивающего у детей воображение, эмпатию, творческое мышление: это – репертуар, его художественность, направленность, содержательность; дирижер-хормейстер – главный наставник, формирующий духовный облик подростков; коллектив – как формирующая среда в процессе исполнительства.



**Ключевые слова:** хоровое пение, воображение, творческое мышление, художественно-эстетический вкус, нравственное воспитание



**Summary**

Maralxanum Alieva

THE ROLE OF CHORAL SINGING IN THE SPIRITUAL ENRICHMENT OF SCHOOLCHİLDRENS

The article is devoted to the disclosure of the role of choral singing in the spiritual enrichment of students. It analyzes the main factors of choral performance, which develops imagination, empathy, and creative thinking in children: this is the repertoire, its artistry, orientation, and content; choirmaster conductor - the main mentor, shaping the spiritual appearance of adolescents; collective - as a formative environment in the process of execution.



**Key words:** choral singing, imagination, creative thinking, artistic and aesthetic taste, moral education